Helikopterlə bağlı Azərbaycan tarixində ikinci böyük ağrılı qəza baş verdi. 30 noyabr qəzası Soçi görüşünün təəssüratını həzm etməmiş ruhumuzu, varlığımızı sarsıtdı. 30 il bundan əvvəlki Qarakənd üstündə vurulan helikopterlə 30 noyabr qəzasının müqayisəsində qərəzli-qərəzsiz oxşar motivlər axtaranların heç birini qınamaq olmaz.

Həqiqəti istintaq orqanları deməlidir; nə baş verib, niyə baş verib?

Ancaq məni tamam başqa məsələ düşündürür... Hərçənd ki, bizi düşündürən məsələlərə cavab vermək həmişə asan olmur.

Helikopter qəzasında həlak olanların hər biri vətənin ciyərparasıdır, yurdun övladıdır... və demək, mənim övladımdır. Sənin, o birinin – hər birimizin övladıdır.

Bizim Xələfli kəndində (Cəbrayıl rayonu) bir adam öləndə - ölənin dəfn günündə kənddə heç kim işləmirdi. Bənna daş qaldırmırdı, xarrat ağac yonmurdu, bostançı bostana getmirdi, bağbanın bağı başına qalırdı. Hətta ölən cavan olsa, deyirdilər ki, qəbrə sallayanda su axmır, arx dayanır...

Ey ilahi, doğrudanmı dəyərlər bu qədər itib? Həqiqətənmi dəyərlər bu qədər sarsılıb? Qəza şəhidlərinin dəfn günündə ən haqlı tələblərlə olsa belə, mitinq çağırışı nə dərəcədə düzgündür?.. İnanmıram bu məmləkətdə kimsə bu əmələ haqq qazandırsın.

Hətta nə qədər mitinq tələbləri haqlı olsa belə, yenə də vaxtı dəyişməliydi. Mitinq təşkilatçıları özlərini güclü hesab edirlərsə, təyin olunmuş vaxtı dəyişmək əslində onların manevr imkanının reallığını göstərərdi, öz güclərinin nəyə qadir olduğunu göstərərdi.

## Böyük qəza və kiçik cəza - fəza

Sosial şəbəkədə döyülmüş, az qala göz qapaqları örtülmək həddinə çatacaq qədər zərbə almış mitinq iştirakçısının görkəmi sözün həqiqi mənasında əks reaksiya doğurur. Hər hansı bir mitinqdə kiməsə bircə çırtma vurmağın da tərəfdarı deyiləm. Bu, yolverilməzdir. Fiziki zorakılıq, döymək, əzişdirmək bütün hallarda cinayət kimi xarakterizə olunmalıdır. Döyüləni kimin döydüyü də araşdırılmalıdır. Bəlkə də bunun özü də hansısa qaranlıq bir mətləbə aydınlıq gətirər.

İndi heç olmasa, neçə gündən sonra soyuq başla düşünməyin zamanı gəlib çatıbmı? Əgər çatıbsa dəfn günündə hər hansı bir siyasi iddianın ortaya qoyulması nə dərəcədə mənəvi-əxlaqi ölçüyə uyğun gəlir?

Həmin gün Azərbaycan hər birinə formalaşmaq üçün 20-30 il sərf etdiyi oğulları yola saldı, əbədiyyət ünvanına yola saldı. Ancaq həm də həmin gün ortalıqda siyasi iddialar cövlan etdi.

Bir anlığa düşünək; siyasi iddiaların çağırışları ilə hamımız razılaşaq və onların yanına gedək... Bəs vətən oğullarını əbədiyyətə kim yola salardı?.. Bütün bunlar baş verən elə olaylardır ki, həm də ağı, qaranı seçmək imkanı yaradır. Ən azı, siyasi müxalifətə özü haqqında düşünmək imkanı verir.Həlak olanların hər biri mənim qəlbimin bir parçasıdır. Həm də onların arasında valideynlərini yaxşı tanıdığım cəbrayıllılar da var.

Hələ üstəlik, dünən qəza qurbanlarından birinin qonşuluğumuzda nişan mərasimi olmalıydı.

Necə ağırdır? Bəlkə heç ağır deyil? Qoy, bu qəzanın dəhşətlərini yaşayanlarla, onların ağrısını daşıyanlarla iddia istəklərinin arxasınca qaçanlar kimliklərini ölçüyə gətirsinlər.

Cənablar, yadda saxlayın; cavan öləndə yoldan keçənin damarında qanı donur. Hələ söhbət vətən şəhidindən gedirsə, çayların durmağından gərək danışasan.

*Əli Rza* Xələfli
*02.12.2021*

Kredo.- 2021.- 3 dekabr.- S.1.